N 84
23.11.2018

# ƏMR

**"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili üzrə Seçki Komissiyasının yaradılması haqqında"**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü bəndinə uyğun olaraq "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi yanında İctimai Şuraya (bundan sonra-İctimai Şura) seçkilərin təşkili üzrə Seçki Komissiyası yaradılsın.
2. Seçki Komissiyasının aşağıdakı tərkibi təsdiq edilsin:

| | | |
|---|---|---|
| Zəkiyyə Mustafayeva | | Aparatın rəhbəri, sədr |
| Viktor Qasımov | - | Sanitariya- epidemioloiji nəzarəti sektorunun müdiri, üzv |
| Elxan Əzizov | - | Hüquq və daxili nəzarət sektorunun müdiri, üzv |
| Pərviz Abubəkirov | - | Analitik Ekspertiza Mərkəzinin mütəxəssisi, üzv |
| Mübariz Verdiyev | - | Səhiyyə işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin baş texniki əmək müfəttişi, üzv |
| Nigar Məcidova | - | "Tibb" qəzetinin baş redaktoru, üzv |
| Aydan İsmayılova | - | "Psixo- sosial yardım" İctimai Birliyinin nümayəndəsi, üzv |
| Könül Ələkbərova | - | "Tibb işçilərinin hüquqi maariflәndirilməsinə yardım" İctimai Birliyinin nümayəndəsi, üzv |

Fariz Babayev - "Pasient hüquqlarının maarifləndirilməsinə dəstək" İctimai Birliyinin nümayəndəsi, üzv

3 Seçki Komissiyasına tapşırılsın:

3.1. İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirsin;

3.2. İctimai Şuranın üzvlərinin say həddini müəyyən etsin.

4. Mətbuat Xidməti Nazirliyin rəsmi internet səhifəsində (www.health.gov.az) və digər mətbu nəşrdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Əsli ilə düzdür